# O dağların lala vaxtı…



## Yağı tapdağında qalan Zəngəzurun adət – ənənələri haqqında qeydlər

❒ *“Zəngəzur” adlı ikicildlik romanı ilə adı ədəbiyyat tariximizə yazılan yazıçı Əyyub Abbasov həmin əsərində hazırda əsirlikdə inləyən ulu yurdun adət – ənənələri haqqında da ətraflı məlumat var. Kitabda belə bir haşiyə diqqət çəkir: “İndi bizim yerlərdə yazdır, çöl, bayır göyərib, ağaclar yarpaqlayıb, çayın, bulaqların qıraqlarında yarpızlar baş qaldırıb. Eh, görəsən, mənim ev-eşiyim hansı zalıma qismət oldu? Görəsən, qızılgüllərimi qırıb tələf etmədilər ki? Biz kəndə qayıtsaq, ermənilər hər kəsin evini, torpağını özünə verəcəklərmi? Andranik kökümüzün üstündə od qaladı. Allah baisin evini başına uçursun, axı biz ermənilərə nə eləmişdik? Niyə məxluqu yerindən, yurdundan elədilər?!”*

... Mən hər dəfə bu sətirləri oxuduqca təkcə uşaqlığımın, gəncliyimin kəndini, insanlarını xatırlamıram, o yurdun hər daşı, ağacı, çayı, dağı da gözlərim önündən çəkilmir. Yazda novruzgülünün ətrini, yayda günortanın rahatlıq gətirən qara kölgəsini, payızda bağ-bağçaların bar-bərəkətini, qışda şaxtanın iliyə işləyən buz nəfəsini, nə illah eləyirəm, unuda bilmirəm...

... Builki yazla yayın qovuşuğundakı günlərin birində neçə illərdi yağı tapdağında inləyən o viranə kəndin Ağdünün hüznlü kimsəsizliyini bir daha xəyalımda canlandırdım; məhəlləmizə uzanan yol – yolağları, cığırları kol-kos basıb. Fərəhli günlərimin şahidi olan həyət-bacamız, sanki dərdə tab gətirməyib, ot-ələf içində itib-batıb… “Bir qarış boyu, yarım qarış eni olan, tək-tənha qalan, gələni, gedəni görünməyən”, ətrafında bir ins-cins gözə dəyməyən evimizsə beş addımlıqdakı köhnə qəbiristanlığın qaramatına bürünüb. miskin görkəmilə ürək dağlayır…

… Yadıma keçmişin uzaqlardan əks-səda verən söyləməsi düşdü:

***... Mən yollara baxaram,***
***Yollar əliboş gələr...***

... Düşüncələrimdə həmin “əliboş gələn yollar”la geri dönüb kəndimizin yazın Novruz hazırlığı günlərinə qayıtdım: Həyət – baca, ev-eşik təmizlənir, səliqə – sahmana salınır. Əkin yerləri şumlanır. Ruzi-bərəkət gətirən adamlar torpağa yaşıl naxışlar salır.

… Uşaqlar çərşənbə axşamı Novruz tonqalının üstündən “ağırlığım, uğurluğum tökül bu odun üstünə...” deyib atdanır, sonra da qapı pusur, torba atırlar.

Tonqalların işığından gündüzə dönən həmin axşamda qonaq getmirlər, əziz bayramı doğma ocaq başında keçirirlər. Obaşdanala qaranlıqdan isə böyüklü-kiçikli hamı bulağa, su üstünə üz tutur, nov üstündən atlanıb “diş ağrım, baş ağrım, göz ağrım burda qalsın” deyir, sonra da evə su gətirir və onu evin dörd bir bucağına səpib “qoy qurd-quş olmasın” söyləyir.

Küsülülər barışır, ağrı-acılar unudulur. Evlərdə bayram süfrəsi bəzənir. Qonum-qonşu bir-birinə xeyir-dua verir. Uzaq-uzaq mahallara “səpələnən ” nəvə-nəticələr yeddi ilin ayrılığının tilsimini qırmaq üçün Novruz bayramına tələsirlər...

* * *

... Yay da bir göz qırpımında özünü yetirir. “Dağların lala vaxtı” gəlhagəli başlayır yaylaqların, qoyun-quzu sürüləri zirvəsi qarlı dağların ətəklərinədək yayılır. Yamaclardakı gül-çiçəyin ətri adamı məst edir. Bulaqların şırıltısı kövrək bir mahnını xatırladır...

Nənəmin tez-tez dilə gətirdiyi Aşıq Abbasın “Dağların lala vaxtıdı” sözləri isə qəlbimi bahar yeli kimi sığallayır, ürəyim bir dinclik, rahatlıq tapır:

***Budu gəldi bahar fəsli,***
***Dağların lala vaxtıdı.***
***Açılıbdı qızıl güllər,***
***Bülbülün bala vaxtıdı.***

... Sərin mehdən döşlərdəki taxıl zəmilərinin, düzənlərdə dizə qalxan otların dərya kimi dalğalanması, qayalıqlardan gələn qantəpər, kəklikotu qoxusu, ayaq səslərindən hürkən kəkliklərin pırıltıyla havaya qalxması el-obanın qoyun-quzu sürüsünü çöl-bayıra yayan çobanda xoş ovqat yaradır, yorğunluğunu çıxarır.

Arpa, Buğda təpələrindən yaylaqlara doğru uzanan əriş-arğac dağ yollarını yazın ortalarından başlayaraq, qoyun sürüləri, at ilxıları, dəvə qatarı tutmur. Qadınlar dəvələrin üstündə fərməşlərin arasında oturub yun darayır, cəhrə qurub, ip əyirirlər. Yaylağa çatana qədər xalça-palaz üçün tədarük görürlər. İşıqlıdağın ətəklərindəki dərələrdən sürünüb qalxan yaz dumanının arxasınca güllü-çiçəkli yamaclar tərəkəmə köçünə qucaq açır. Şükürbəyli, Rəsullu, Şahsevənli, Qiyamadınlı, Kürmahmudlu, Xəlfəli, Ovşar, Böyük Mərcanlı elat camaatı binələrdə dinclik tapır.

Yayın quyruq doğan vədəsində isə dəvələr ağzı arana yatırlar... Camaat bununla köçün geriyə, arana dönmə vaxtının yetişdiyini duyub yır-yığışa başlayır, yavaş-yavaş barxanları bağlayıb arana yola salır. Yaşlılar axşam-səhər “dağ yeri-duman yeri, yurd yeri-güman yeri” məsəlini pıçıldayırlar. Çobanlar gündə neçə kərə dağlara baxıb köks ötürürlər:

***İldırımlar buludların pələngi,***
***Paslanacaq mənsiz***
***şimşək üzəngim.***

***Eh, ya qismət, a şəlaləm,***
***a gəncim,***
***Salamat qal,***
***salamat!***

* * *

… Payız toyları el-obaya bəxtəvərlik gətirirdi. Bir-birinin ardınca həyətlərdə qurulan mağarlarda qara zurnada çalınan “Cəngi” havasında pəhləvan cüssəli oğullar güləşirdilər. Bəzənib-düzənən el gözəlləri heydən düşənədək oynayırdılar… Bir də görərdin ki, “Yaylığı” havası çalınır:

**… Cavan oğlan, ver yaylığı,**
**Yaylıq salar ayrılığı...**

… Ötən bahar axşamlarının birində bu yaylıq iki istəkli qəlbi bir-birinə bağlamışdı. İndi isə “ayrılıq salmasın” deyə yaylıq oğlandan geri alınır…

…Payız beləcə gəlirdi, çöl-çəmənlər payız rənginə boyanırdı. Arpa, Buğda təpələrindən üzü İşıqlıdağa uzanan kövşən yerləri yenidən göyərməyə, sünbül bağlamağa qəribsəyirdi…

Kövşən yerlərindən danışdığım bu məqamda, yadıma ocaqlaşmış bir məkan – Alməmməd kişinin dəyirmanı düşdü… Düz-dünya sünbül ətrilə nəfəs alan vədələrdə taxıl dolu taylar o dəyirmana gətirilər, buradan isə un kisələri evlərə daşınardı. Kəndin aşağı başında təndirlərdə bişirilən çörəyin qoxusu yuxarı məhəlləyə gedib çatardı.

Ermənilər o dəyirmanı da dağıtmışdılar. O müqəddəs ocaqdan təkcə ora gələn arx, bir də, az qala, torpağa qarışmış dəyirman yeri qalmışdı... Mən “Çaylar” dediyimiz dərin dərədən axan Bazarçayın sahilindəki həmin dəyirmanın xarabalığında - qaralan ocaq yerində həmişə qəribə bir hüzn, nisgil görürdüm. Bu qəmli düşüncələr içində dəyirmana dən gətirdiyimiz günləri indi də rənglərinə, istisoyuğuna qədər xatırlayıram. Orada dəyirmanın qapısı ağzında ocaqda bişən kütün dadını-duzunu, ləzzətini indi də unuda bilmirəm...

...Bu qeydləri etdiyim yay gecələrinin birində yuxuda xaraba qalmış o dəyirmanı gördüm: Alməmməd kişi həmişəki kimi dəyirmanın qapısı ağzındakı daşın üstündə oturub bura gələnlərin yolunu gözləyirdi.

Dəyirmana gələnsə yoxuydu...

* * *

...O payızdan sonra kəndimizin yeni bir qışı gələcəkdi. Nənəm **“qış təqvimi”**ni tez-tez təkrarlayacaq, havaların necə keçəcəyini əvvəlcədən doğru-dürüst bilməsi ilə qürrələnəcəkdi: – Yağışlar payızın ortalarından başlayıb, aramsız yağsa, ağaclar yarpaqlarını aşağıdan töksə, gecələr ayaz, gündüzlər dumanlı olsa qış çox sərt keçəcək. Gündüzlər əl-üzü ayaz kəssə, gecələr duman-çəndən gözgözü görməsə havalar yumşalacaq, günlərin ağırlığı ürək sıxmayacaq.

Sonra da dilində el şeiriyyətindən bir yozma təkrarlanacaqdı: “Gecə ayaz, gündüz duman, ilin kürüdür-kürü. Gündüz ayaz, gecə duman, ilin gülüdür – gülü”.

Nənəm qış hələ qapını kəsdirməmiş “çillə” adətlərindən, qırx gün çəkən, çox vaxt ağır, üzücü keçən “böyük çillə”dən, qışın ən sərt, çovğunlu, dondurucu çağı sayılan “kiçik çillə”dən, Xıdır Nəbi bayramından, “boz ay”ın qızarıb-bozaran həftələrinin cansıxıcılığından danışmaqdan doymayacaqdı.

… Çöl-bayırdan əl-ayaq yığışanda, evlərdə xalça-kilim xanaları qurulardı. Payızın, qışın uzun gecələrində xalı, palaz… toxunardı… Qız-gəlinin min bir zəhməti hesabına başa gələn, sözün həqiqi mənasında, sənət əsərləri olan bu toxumaların tamamlandığı gün o ocağın ən xoşbəxt, bəxtəvər çağı olardı; xanaçılar oğul doğan gəlinlər, qoyunu əkiz doğan çobanlar, inəkləri və camışları yelinləyən naxırçı kimi qürurlu gəzərdilər, sevinclərini qonum-qonşuyla bölüşər, şirinlik paylayardılar...

Xalçaçılıqdan danışarkən, bir məqamı da xüsusi qeyd etmək istərdim. Zəngəzurun hər bölgəsində, hər kəndində sadə əyiricilik və toxuculuq alətləri ilə ip əyrilməsi, xalça toxunması adət-ənənə halını almışdı. Demək olar ki, əksər evdə toxucu dəzgah (hana və yer hanası) var idi. Hazırlanan yun və pambıq iplərdən xalça, kilim, palaz, fərməş, xurcun, yun şal (parça) və digər məmulatlar toxunurdu...

Qışın qarlı-şaxtalı, ot-ələf “dərdli” günləri sona çatanda isə torpaq təzədən buğlanardı. Çöl-çəmən al-qırmızı rəngə boyanardı. Baharın yolunu intizarla gözləyən bağrı qan lalələr, boynu bükük bənövşələr qar altından baş qaldırıb yaz Günəşinə sarı boylanırdı. Dərələrdən şırıltıyla axan sular düzlərə yayılıb, torpağın yaşıl xalısı olan otlara ruh verirdi.

Pirani qocalar dağları çənli görəndə əsrlərin uzaqlığından qopub gələn ulu bir sözü yada salırdılar:

***Qışın çəni qar gətirər,***
***Yazın çəni bar gətirər.***

* * *

... 1988-in payızından sonra kəndimizin yeni bir qışı da gələcəkdi, sonra təzə bir baharını yaşayacaqdıq, çöl-çəmən yenidən yaşıllaşacaqdı, ağaclar çiçəkləyəcəkdi, bulaqlar zümzümə edəcəkdi. Üzü yaya doğru isə elat camaatı yenə də dağlara-yaylaqlara üz tutacaqdı…

...O payızdan sonra kəndimizin qışı çox ağır, məşəqqətli gəldi. Yazı isə gəlmədi ki, gəlmədi...

...O kənd 1988-dən bəri özünün tilsimli qış ömrü yaşayır-yazsız, yaysız, payızsız ömrünü...

* * *

... Qınanılsam da, deyəcəyəm: mən - torpağı tapdalanan, ev-eşiyi yağmalanan, yurdu talanan, arzu-diləyi qarsalanan, ümidi, inamı daşlara çırpılan bir Allah bəndəsi indi daha yazın gəlişindən sevinmirəm. İndi yayın ruzi yetirən istisinin həsrətini o qədər də çəkmirəm. İndi xatirələrimi təzələyən payızdan da heç nə ummuram. Qış yaxınlaşdıqca isə uzun gecələrin həsrət əzabına bürünəcəyimi düşünüb üşünürəm...

1988-dən “lələsi köçüb viran qalan yurdun” yığnaqsız, təktənha, arxa-dayaqsız, toy-düyünsüz qaldığını gözlərim önünə gətirib korun-korun alışır, pörşələnirəm.

***Vaqif BAYRAMOV,***
***“Xalq qəzeti”***



***Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim edilir.***